Mənə sual vermə çox,
Ayrılığın dadından.
Hələ ayrılmamışam,
Ayrıldığım qadından.

Elə asan gəlməsin,
Sənə "Əlvida" sözü.
Necə dediyimi də,
Xatırlamıram, düzü.

Maraqlıdırsa, deyim,
Necə keçir zamanım.
Olanlar ortadadır,
Nə gizlədim, nə danım?

Təkcə sağ qolum çıxır,
Soyuq alnıma yiyə.
Gecələr dörddə, beşdə,
Getdiyim an mürgüyə.

Pəncərə şüşələri,
Diş ağardır halıma.
Nə var, nə var, tənhayam,
Söykənmişəm qoluma.

Qapının zəngi susub,
Telefonla bərabər.
Burda yaslıdı hər şey,
Təbəssümdən yox əsər.

Güzgü ehtiyat edir,
Üzülərəm deyə mən.
Niyə bu günə düşdüm,
Niyə, niyə, niyə, mən?

Yarımçıq çox şeir var,
İstinadı sən olan.
Başlanğıcı sən olan,
Yaxud, adı sən olan.

Sual verə bilərsən,
Niyə yarımçıq dedim.
Sənsiz hər şey yarımçıq,
Bunu sənə çox dedim.

Hamı bildi, nə olsun,
Biləsi sən bilmədin.
Yüzü qapımı döysün,
Gələsi sən gəlmədin.

Öz ayaq səsimə də
Tez aldanan biriyəm.
Durub qapıya qaçan,
- Gəldi! - sanan biriyəm.

Kənardan heç bilmirəm,
Bu görüntü nə adda.
Səndən soruşmağa da,
Çəkinirəm mən, hətta.

Başqa nədən danışım?
Dedim yada düşəndən.
Yaddaş da zəifləyib,
Ruhum oda düşəndən.

Budur, səhər açılır,
Məktubunu aç, oxu.
Verdiyin sualların
Cavabsız qaldı çoxu.

* * *

Əgər oyanmasam, heç üzülməzsən,
Sadəcə, adımı xatırla hərdən.
Nə vaxtsa haqqımda söz-söhbət düşsə,
Denən: - Tanıyırdım, köçdü şəhərdən.

Qoy dostlar bir az da qınasın səni,
Desinlər, o adam dünyadan köçüb.
Sən qəti fikrindən dönmə, əzizim,
De, dünən görmüşəm, önümdən keçib.

Beləcə, hamını daşıt fikrindən,
Hamı inansın ki, nəfəsim gəlir.
Hələ nömrəmi də yığsınlar tezcə,
Görsünlər sağammı, heç səsim gəlir?

Yalançı çıxmazsan, narahat olma,
"Zəng çatmır" - deyirlər, "öldü" - demirlər
Görürsən, nə qədər insaflıdırlar?
Səni utandırmaq heç istəmirlər.

* * *

Hər gün ölür ümidlər,
Taun, zökəm, min bəla.
Sabaha addım atmaq,
Müşkül olub, az qala.

İtkilərin sayından,
Yoxdu dəqiq məlumat.
Bir xəbər eşidirsən,
Hər dəqiqə, hər saat.

Oğulsan, ayırd elə,
Kimdi günah yiyəsi.
Kimdi həqiqi qatil,
Kimdi silah yiyəsi.

Bir-birindən hamının,
Umub-küsəcəyi var.
Bircə an içindəcə,
Salam kəsəcəyi var.

İndi baş saxlamaqçün,
Başdan baş olmalısan.
Ya ac ürəyi yumşaq,
Ya da daş olmalısan.

* * *

Bəxtəbəxt düşmüşdün mənim qəlbimə,
Bəlkə də heç ora yerin deyildi.
Kiminsə, nəyinsə xətrinə qəsdən,
Şirindi dediyin şirin deyildi.

Geriyə yolun da yoxuydu onsuz,
Taleyin özgənin ixtiyarında.
Sabahdan əlimi üzmüşdüm tamam,
Qismətin qan sızan daş hasarında.

* * *

Bir zaman mən ağlayardım,
İndi sən gözləri yaşlı.
Boş evə dərdini söylə:
- Nə edim mən başı daşlı?!

"Ağladan ağlayar, əlbət!"
Həyatın qaydası, bəlkə?!
Gözünün yaşını tökmə,
Olmadı faydası, bəlkə.

Nə qədər çətin də olsa,
Bir ömür yaşandı, getdi
Köç etdi ən təmiz hisslər,
Köç etdi, daşındı, getdi

Sadəcə təsəlli verdim,
Bu da bir imtahan olsun.
Gecəni yat bu ümidlə:
- Kaş, olanlar yalan olsun!

## BU ADAM

Bu adam bir vaxtlar sənə sığındı,
Bu adam bir vaxtlar dağ bildi səni.
Bu adam bir vaxtlar tək sənə qaçdı,
Bu adam bir vaxtlar haqq bildi səni.

Vaxtında hayına gəlməsən də sən,
Təbəssüm umanda gülməsən də sən,
Onun kimliyini bilməsən də sən,
Bu adam hamıdan çox bildi səni.

O, çox gözəl bildi, vallah, nə dedi,
Ayrılıq əbədi, ölüm əbədi.
Çarə tükəndikdə: - getdi! - demədi,
Bu adam əzəldən yox bildi səni.



* * *

"Ruh" - dediyim küçə-küçə,
Dolaşar, mənsiz dolaşar.
"Qurd" - dediyim gecə-gecə,
Ulaşar, mənsiz ulaşar.

Yağır ayaqlarım mənim,
Qənimdi, özümə qənim.
Öz qanıma, öz bədənim,
Bulaşar, mənsiz bulaşar.
Bitməz bu söhbət-sov ki, var,
Ovçu yoxsa da ov ki, var.
Sinəm altında qov ki, var,
Alışar, mənsiz alışar.

* * *

Sənin əllərin üşüyür,
Mənim ürəyim, ürəyim...
Ha söz verdim ki, gizlədim,
Sənə deməyim, deməyim...

Ürək yox kimi, çox da var,
Yetişim gərək, vaxta var.
Məni tapaydı şaxtalar,
Kövrək çiçəyim, çiçəyim...

Hakimsən göyə, yerə sən,
Dərdini mənə verəsən.
Çoxmu böyükdü, görəsən,
Arzum, diləyim, diləyim?

Nə çıxırsa, təkdən çıxır,
Ələnir, ələkdən çıxır.
Dərdini çəkməkdən çıxır,
Mənim çörəyim, çörəyim...

* * *

Ümidlər parıldadı,
Gözüm elə qamaşdı.
Elə bildim yay gəlib,
Sən demə, hələ qışdı.

Cırıb atdım şəklini,
Gözləri hələ yaşdı.
Günahı bu idi ki,
Sənə oxşamamışdı.

Vallah, hamı biganə,
Vədlərin hamsı boşdu.
Bircə bizə ağlayan,
Bayırdakı yağışdı.

Bayaqdan darıxırdım,
Bu, lap yerinə düşdü.
Bir şeirə uyandan,
Başım yaman qarışdı.

* * *

Ölüm qoxusu çöküb,
bu gecənin üstünə.
Bu dalanın üstünə,
bu küçənin üstünə.

Gəlsəm necə gəlim mən,
Dönüb heçə gəlim mən?
Görən, neçə gəlim mən
Bir neçənin üstünə?

Deyir ki, get, söz verib,
Ünvanı da düz verib.
Tanrı borca göndərib,
Məni sənin üstünə.



**İntiqam Yaşar**